UOT 37.01.

***Aynur Elyaz qızı Allahverdiyeva,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TARİX DƏRSLƏRİNDƏ SƏNƏDLƏRLƏ İŞ

***Айнур Эльяз гызы Аллахвердиева,***
*Азербайджанский Государственный Педагогический Университет*

# РАБОТА С ДОКУМЕНТАМИ НА УРОКАХ ИСТОРИИ

***Aynur Elyaz Allahverdiyeva,***
*Azerbaijan State Pedagogical Universuty*

# WORKİNG WİTH DOCUMENTS ON THE LESSONS OF HİSTORY

**Xülasə:** Bu məqalədə tarixi sənədlərlə işlərin təşkili prosesində tarix dərslərində şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsinin effektiv metodik vasitələri, metodları və qaydaları təhlil edilmişdir. Tədqiqat yolu ilə təhsilin praktik ideyası təqdim olunmuşdur. Tarix dərslərində tarixi sənədlərin səmərəli istifadəsi nəzərdən keçirilir.
***Açar sözlər:*** *Tarixin tədrisi, tarixin tədrisinin metodikası, tarixi sənədlər, sənədlərlə iş, tədqiqat*

**Резюме:** В данной статье были проанализированы эффективные методические приемы, способы и методы формирования у учащихся навыков исследовательской работы на уроках истории в процессе организации работы с историческими документами. Была представлена практическая идея образования путем исследования. Рассмотрено эффективное использование исторических документов на уроках истории.
***Ключевые слова:*** *Преподавание истории, методика преподавания истории, исторические документы, работа с документами, исследование*

**Summary:** The effective metodical ways and methods of forming students research skills during history lessons in the process of organization of work with historical documents were analysed in this article. One of the versions of practical idea of education through the research was presented. An effective use of historical documents during the lessons of history was grounded.
***Keywords:*** *The teaching of the history, methods of teaching history, historical documents, working with documents, research*

Müasir dövrdə ölkəmizin dinamik inkişaf etdiyi bir şəraitdə tarixi keçmişimizi dərindən bilmək, hadisələrin mahiyyətini dərindən anlamaq, öyrənənlərin tədqiqatçılıq qabiliyyətini inkişaf etdirmək, dərsə maraq oyatmaq üçün tarix dərslərində sənədli materiallarla işin effektiv metodiki yollarını tapmaq lazımdır. Sənədlərin köməyi ilə tarixin öyrənilməsində tədqiqatların üsulları, prinsipləri formalaşır. Sənəd müəllimin nəqlini canlı və parlaq, nəticələri isə daha inandırıcı edir. Sənədin əhəmiyyəti bir də ondan ibarətdir ki, o tarixi materialı daha dəqiq və konkret edir, keçmişin parlaq obrazını yaratmaqla sanki keçmişin ruhunu canlandırır.

Sənədlərlə iş nəticəsində şagirdlərdə tarixə maraq yaranır. Sənədlərlə iş zamanı şagirdlərdə düşünmək və təsəvvür etmək prosesi aktivləşir, hansı ki, tarixi bilik və tarixi təfəkkürün inkişafına səbəb olur. Şagirdlərdə müstəqil işləmək bacarığı formalaşır: sənədi oxumaq, məlumatı təhlil etmək, müzakirə etmək, keçmiş və indiki sənədləri dəyərləndirmək və s.

Tarixi mənbələrə insan tərəfindən yaradılan hər şey, o cümlədən onun ətraf aləmlə əlaqəsi, maddi-mədəniyyət nümunələri, adət-ənənə-

lər, mərasimlər, yazılı abidələr daxildir. "Yazılı abidələr" sözün geniş mənasında metodikada "sənədlər" adlanır.

Sənədli materialların təhlili həm dərs prosesində, həm də dərsdənkənar tədbirlərdə aparıla bilər.

Tarix dərslərində sənədli materiallardan istifadə təlimin keyfiyyətini artırır. Ancaq, məlumdur ki, dərsin bütün mərhələlərini tarixi sənədlərlə işə həsr etmək olmaz. Sənədli materialları əsasən müəllimin nəqlinə, dərsliyə, mövzuya köməkçi, onun mahiyyətini açan və təsdiqləyən bir vasitə kimi dərs prosesinə cəlb etmək lazımdır. Sənəd tarixi hadisəni dərinləşdirmək, konkretləşdirmək, şagirdlər tərəfindən mənimsənilmiş biliklərə canlı təsəvvür vermək üçün istifadə olunur. Tarixin tədrisində sənədlərlə iş iki üsulla aparılır:

1. Tarix dərslərində sənəd materiallarının müəllimin şərhinə daxil edilməsi.

2. Sənəd üzərində şagirdlərin müstəqil işinin təşkil edilməsi (1, s. 302).

Dərsdə müəllimin sənədli materiallardan istifadə etməsi müəllimin nəqlini, təsvirini konkretləşdirmək, sübutluluğunu və emosionallığını artırmaq üçün istifadə olunur. Müəllim sənəddəki kiçik hissələri, ifadələri, surətləri öz şərhinə daxil edir. Bu zaman müəllim ayrı-ayrı kiçik hissələri əzbər bilməli, olduğu kimi şagirdlərə çatdırmalıdır. Həcmcə böyük sənədlərin oxunması şagirdlərin marağına səbəb olmur, onların diqqətini yayındırır.

Sənədli materialların mətni üzərində şagirdlərin müstəqil işləri müxtəlif formada aparıla bilər:

1. Tarixi sənədin müəllim tərəfindən təhlil edilməsi.

2. Müəllimin rəhbərliyi altında sənədli materialın şagirdlər tərəfindən təhlil edilməsi.

3. Müəllimin tapşırığı ilə tarix dərslərində şagirdlərin müstəqil işlərinin təşkil olunması.

4. Müəllimin tapşırığına əsasən şagirdlərin evdə sənədlə müstəqil ev işinin yerinə yetirilməsi (2, s. 304-308 ).

Sənədli materiallar həm kitablardan, həm dərs vəsaitlərindən, dövrə aid qəzet və jurnallardan, internet resurslarından, muzey və arxivlərdəki sənədli materiallardan götürülə bilər.

Şagirdlər üçün bilik mənbəyi olan dərs vəsaitləri üç qrupa bölünür:

1. Sənəd xarakteri daşıyan yazılı və maddi abidələr, onların yenidən çap olunmuş nüsxəsi.

2. Tarixin elmi-kütləvi formada şərh edilməsi.

3. Təsviri incəsənət və ədəbiyyat əsərlərində tarixi gerçəkliyin əks etdirilməsi (3, s. 91).

Tarix dərsliklərində də hər mövzuya uyğun sənədli materiallar əks olunmuşdur. Əsasən bu sənədlərin məzmunu ədəbi, akt xarakterli, bədii ədəbiyyat sənədləri olur.

Həmçinin tarix dərsində istifadə olunan sənəd şagirdlərdə emosional hiss oyatmalı, ədəbi və elmi keyfiyyətlərə yiyələnməyə, müstəqil işləmək bacarığının inkişafına, əqli əməklərinin genişlənməsinə kömək etməlidir.

Tarix dərslərində şagirdlərin tədqiqatçılıq qabiliyyətlərini formalaşdırmaq və inkişaf etdirmək üçün sistemli və nizamlı şəkildə aparılan tarixi sənədlərlə iş zamanı aşağıdakı nəticələri əldə etmək olar:

-tarixi bütövlükdə, tam qavramaq üçün şagirdlərdə yaradıcı aktivliyin effektiv inkişafını stimullaşdırmaq;

-müəllim və şagird arasında olan obyektiv və subyektiv münasibətləri əməkdaşlıq münasibəti ilə əvəz etmək;

-şagirdlərdə məlumatları müxtəlif mənbələrdən əldə etmək maraqlarını inkişaf etdirmək, onları tədqiqatçılığa sövq etmək.

Tarix dərslərində sənədlərlə iş zamanı müəllim ilk növbədə sənədlərlə işləməyin yollarını şagirdlərə öyrətməlidir. Şagirdlərin yaş xüsusiyyəti, psixologiyası, qavrama qabiliyyətləri nəzərə alınmaqla aşağı siniflərdə şagirdlərə nisbətən asan sənədlər təqdim olunur. Yuxarı siniflərə qalxdıqca isə daha mürəkkəb sənədlərlə iş aparılır. Belə ki, 5-6-cı siniflərdə daha sadə sənədli materiallar üzərində iş aparılır, həmin sənədlərin həcmi 10-15 sətirdən çox olmur, 7-8-ci siniflərdə iqtisadi və hüquqi sənədlərin sayı artır, 9-11-ci siniflərdə isə əsasən siyasi materiallar üzərində iş aparılır (4, s. 134).

Tarixi mətnlərlə işləmək üçün bir çox metod arasında aşağıdakıları ayırd edə bilərik:

a) oxu və təhlil;

b) anlayışların çıxarılması, əsas müddəalar, əsas fikri vurğulamaq;

c) oxumaq;

d) mətnin kollektiv təhlili;

e) mətnə suallar hazırlamaq;

f) tədqiq olunan ictimai hadisələri müəyyən etmək üçün faktiki və nəzəri materialların ümumiləşdirilməsi;

g) sosial-tarixi inkişafa müxtəlif yanaşmaların müəyyənləşdirilməsi;

h) müəlliflərin arqumentlərinin təhlili;

i) müxtəlif mənbələri müqayisə etməklə problemlərə müxtəlif həll yolları tapmaq;

j) ümumiləşdirilmiş nəticələrin formalaşdırılması;

l) səbəb əlaqələrin müəyyənləşdirilməsi və məntiqi mühakimənin çıxarılması;

m) müqayisəli ümumiləşdirmə

n) hesabatların hazırlanması, abstraktlar və s.

Təhsil sistemində şagirdin yalnız mövzuya dair yeni biliklər əldə etməsi deyil, onların bilik və həyat tərzlərini aktiv və müstəqil şəkildə qurmasına imkan verən fəaliyyət metodlarının öyrədilməsi də vacib və aktual problemlərdən biridir. Müasir, dinamik şəkildə dəyişən bir dünyada fərdi inkişaf və inkişafa kömək edən fəaliyyətin universal yollarından biri tədqiqatdır. Tədqiqat bacarıqlarının inkişafı, tədqiqat problemlərini müstəqil həll etmək qabiliyyəti müasir təhsilin prioritet sahələrindən biri hesab olunur. Tarix sənədləri ilə işlərin təşkili prosesində tarix dərslərində şagirdlərin tədqiqat bacarıqlarının formalaşması, tədqiqat vasitəsi ilə bilik və bacarıqların praktik həyata tətbiq edilməsi mümkün variantlardan biridir.

**Mövzunun aktuallığı.** Problemin aktuallığı ondan ibarətdir ki, Azərbaycan təhsil sistemində baş verən ciddi dəyişikliklər, yeni interaktiv təlim metodlarından istifadə şagirdlərdə tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsini tələb edir. Məhz tarix dərslərində sənədli materiallardan istifadə şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin inkişafına səbəb olur. Həmçinin mənbələri araşdırmaqla tarix elmini daha dərindən mənimsəmələrinə səbəb olur.

**Problemin nəzəri əhəmiyyəti.** Məqalədə irəli sürülən nəzəri müddəalar tarix dərslərində sənədli materiallardan istifadə üsullarına dair nəzəriyyələri zənginləşdirir. Bu da təlimin keyfiyyətinin yüksəlməsinə səbəb olur.

**Problemin praktik əhəmiyyəti.** Bu məqalənin nəticələrindən tarix müəllimləri tədris prosesində, eləcə də bakalavr və magistratura pilləsində təhsil alan tələbələr elmi araşdırmalarında istifadə edə bilərlər.

## Ədəbiyyat:

1. A.A. Vagin. Orta məktəbdə tarixin tədrisi metodikası. Bakı, 1973.
2. Əmirov M.M.- Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası. Bakı, 2014.
3. İsayeva T.M.- Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisində mətn üzərində işin təşkili. Bakı, 2009.
4. Студеникин М.Т.- Методика преподавания истории в школе. М., 2000.

**E-mail:** patriot813@mail.ru
**Rəyçi:** *ped.ü.elm.dok., prof.* M.M. Əmirov
**Redaksiyaya daxil olub:** 28.11.2018